YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# Dağlar diyarı Lerik uğurlu yolda

*Dağlar diyarı Lerik rayonunda 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev, Milli Məclisin deputatı Vasif Qafarov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, ağsaqqallar və ictimaiyyət nümayəndələri iştirak ediblər.*



Tədbirdən əvvəl iştirakçılar Müstəqil Azərbaycanın yaradıcısı, xalqının dahi oğlu, ulu öndər Heydər Əliyevin Lerik şəhər mərkəzində ucalan möhtəşəm abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Daha sonra ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş zəfər şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla anılmaqla başlanan tədbirdə 2025-ci il üzrə görülmüş işlər, sosial-iqtisadi inkişafın yekunları və 2026-cı ildə qarşıda duran prioritetlər barədə məruzə edən rayon rəhbəri Ə.Abbasov deyib:

- Mükəmməl islahatlar konsepsiyasının müəllifi olan cənab Prezident İlham Əliyev müasir Azərbaycanın iqtisadi inkişaf modelini yaratmış və bu model dövlətimizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, respublikamızın iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaratmışdır. Uğurlu, qətiyyətli siyasət, həyata keçirilən Dövlət Proqramları və makroiqtisadi layihələr ölkə iqtisadiyyatının daha da inkişafına səbəb olub. Həmçinin bu dinamik inkişaf dağlar diyarında da əhalinin həyat şəraitinin yüksəlməsinə, eləcə də şəhərsalma və abadlıq işlərinin sürətlə aparılması üçün geniş imkanlar yaradıb. Natiq onu da bildirib ki, hesabat ilində rayonda yeni infrastruktur yaradılıb, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa edilib, sahibkarlığın inkişafı yüksək mərhələyə qədəm qoyub, yeni avtomobil yolları tikilib əhalinin istifadəsinə verilib, qaz və su xətləri çəkilib, elektrik təsərrüfatı yenilənib. Ötən dövr ərzində Lerik şəhəri ilə yanaşı rayonun ucqar kəndlərində də abadlıq-quruculuq işləri görülüb.

Tədbirdə digər çıxışlar da olub. Milli Məclisin deputatı Vasif Qafarov və Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev, Lerik Rayon Prokuroru Şahin Şükürov, YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, "Lerik Rayon Mərkəzi Xəstəxanası" publik-hüquqi şəxsin direktoru Maqsud Ağayev, Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü lisey-məktəbin direktoru Gültəkin Şıxəliyeva və Lerik DAİM-nin direktoru Cahani Nüsrətzadə Prezident İlham Əliyevin 2025-ci il ərzində həyata keçirdiyi dövlət siyasəti, strateji islahatları, ölkə qarşısında duran yeni hədəflər haqqında geniş söhbət açıb və rayonun gələcək işləri ilə bağlı prioritet istiqamətləri göstəriblər.

Hesabat yığıncağının iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilib və müraciətin mətni iştirakçıların diqqətinə çatdırılıb.

Sonda rayonun 2026-cı ildə qarşıda duran vəzifələr üzrə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**Zəfər Orucoğlu,**
**AJB-inin üzvü**